“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin
Səhmdarlarının Ümumi Yığıncağı
tərəfindən təsdiq edilmişdir
Protokol № 2; Qərar № 5;
Tarix: 11.05.2018-ci il

# “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası haqqında

# Ə S A S N A M Ə

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə “Banklar haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Mərkəzi Bankının və Maliyyə Bazarlarına Nəzarət Palatasının normativ xarakterli aktları və “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – “Bank”) Nizamnaməsi əsasında hazırlanmışdır və Bankın Müşahidə Şurasının fəaliyyətini reqlamentləşdirir.

1.2. Bankın Müşahidə Şurası (bundan sonra – Şura) Bankın idarə olunmasına və onun işinə nəzarəti həyata keçirən, icra səlahiyyətlərinə malik olmayan idarəetmə orqanıdır.

1.3. Şuranın üzvləri ən azı 5 (beş) nəfərdən nəfərdən ibarət fiziki şəxslərdir və Bankın Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən 4 (dörd) ildən çox olmayan müddətə təyin edilirlər.

1.4. Müşahidə Şurasının sədri Şuranın üzvləri sırasından Səhmdarların Ümumi Yığıncağının qərarı ilə təyin edilir.

1.5. Şuranın üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.

1.6. Şuranın tərkibi yarısından artıq üzvünə qədər azaldıqda, 30 təqvim günü ərzində Bankın Səhmdarlarının növbədənkənar ümumi yığıncağı çağırılaraq Şuraya yeni üzvlər seçilir.

1.7. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə cavab verməyən şəxslərin Şuranın üzvü olmasına yol verilmir. Həmin şəxslər Səhmdarların Ümumi Yığıncağının qərarı ilə Şura üzvü vəzifəsindən azad edilirlər.

1.8. Şuranın və ya onun üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi Səhmdarların Ümumi Yığıncağının qərarı ilə həyata keçirilə bilər.

## 2. Müşahidə Şurasının səlahiyyətləri

2.1. Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

2.1.1. Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.2. Bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;

2.1.3. Bankın büdcəsini qəbul və təsdiq etmək;

2.1.4. Bankın İdarə Heyətindən hesabat almaq;

2.1.5. Bankın kapital ehtiyatları yaradılması haqqında qərar qəbul etmək;

2.1.6. Bankın nizamnamə kapitalının 50 (əlli) faizindən artıq məbləğdə əqdlərin bağlanmasına icazə vermək;

2.1.7. Aidiyyəti şəxslərlə dəyəri bankın aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

2.1.8. Bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək, İdarə Heyətinin əsasnaməsini təsdiq etmək;

2.1.9. Bankın reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;

2.1.10. Bankın təşkilati strukturunu təsdiq etmək;

2.1.11. Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərar qəbul etmək;

2.1.12. Növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;

2.1.13. Kənar və daxili auditorların, habelə yoxlayıcı orqanların yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;

2.1.14. Bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda bankı idarə və təmsil etmək;

2.1.15. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, Bankın İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq və səhmdarların ümumi yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq qanunvericiliklə müəyyən olunan tələblərə cavab verən başqa şəxslərlə əvəz etmək;

2.1.16. Bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək;

2.1.17. Bankın filiallarını, şöbələrini və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;

2.1.18. Digər hüquqi şəxslərin kapitalında Bankın iştirakı barədə qərarlar qəbul etmək;

2.1.19. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və

tətbiq etmək;

2.1.20. bank tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə bu pozuntu barəsində səhmdarların ümumi yığıncağını, Audit Komitəsini və İdarə Heyətini xəbərdar etmək, maliyyə bazarlarına nəzarət orqanına isə bank qanunvericiliyinin və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması faktları barədə bildiriş göndərmək;

2.1.21. Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;

2.1.22. Səhmdarların Ümumi Yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;

2.1.23. Bankın Audit Komitəsinin təqdimatı ilə Bankın daxili audit bölməsinin rəhbəri və əməkdaşlarını vəzifəyə təyin etmək və vəzifədən azad etmək;

2.1.24. Bankda idarəetmənin effektivliyini artırmaq və risklərə nəzarəti gücləndirmək məqsədilə Müşahidə Şurası tərəfindən İdarə Heyətindən asılı olmayan və müstəqil qərarlar qəbul edən daxili komitələr yaratmaq və yaradılan daxili komitələrin əsasnamələrini təsdiq etmək;

2.1.25. 2.1.24-cü yarımbənddə göstərilən məqsədlərlə yaradılmış komitələrin sədrlərini və üzvlərini təyin etmək.

2.2. Bu Əsasnamənin 2.1.14-cü yarımbəndində göstərilmiş səlahiyyətlərini icra etməzdən əvvəl maliyyə bazarlarına nəzarət orqanına əsasları göstərilməklə yazılı bildiriş göndərir və Səhmdarların ümumi yığıncağının növbədənkənar ümumi yığıncağını çağırır.

2.3. Şuranın bu Əsasnamənin 2.1.5, 2.1.14 və 2.1.15-ci yarımbəndlərinə əsasən qəbul etdiyi qərarlar səhmdarların ümumi yığıncağının növbəti iclasının gündəliyinə daxil edilməli və müzakirə olunmalıdır.

## 3. Müşahidə Şurasının hüquq və vəzifələri

3.1. Müşahidə Şurasının hər bir üzvü aşağıdakı vəzifələri daşıyır:

3.1.1. Bankın maliyyə vəziyyətindən, habelə onun bütün mühüm əməliyyatlarından xəbərdar olmaq;

3.1.2. Bankın daxili komitələri tərəfindən təqdim olunan hesabatları mütəmadi olaraq təhlil etmək;

3.1.3. Bankın mənafelərini qorumaq məqsədi ilə yalnız öz şəxsi mühakiməsinə və daxili inamına əsaslanaraq qərar qəbul etmək və səs vermək;

3.1.4. Səsvermə və ya qərar qəbul etmə zamanı hər hansı bir səhmdarın və ya səhmdarlar qrupunun maraqlarına üstünlük verməmək və ya onların göstərişləri ilə hərəkət etməmək;

3.1.5. Bankın mənafeyinə uyğun olmayan və ya uzunmüddətli risklər hesabına qısamüddətli gəlirin əldə edilməsinə yönəlmiş qərarların qəbul edilməsinə yol verməmək;

3.1.6. Bankın qanuni maraqlarını qorumaq;

3.1.7. Bankı, Müşahidə Şurasının digər üzvlərini və bank inzibatçılarını ictimaiyyət qarşısında tənqid etməmək;

3.1.8. Vəzifə borcunun yerinə yetirilməsi ilə bağlı Bank, onunla əlaqədar şəxslər, müştərilər və Bankla biznes əlaqəsi olan başqa şəxslər haqqında ona məlum olan hər hansı bir konfidensial məlumatı, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, heç bir şəxsə açıqlamamaq;

3.1.9. Audit Komitəsinin müstəqil olmasını təmin etmək, daxili auditorların fəaliyyətinə müdaxilə etməmək, yalnız Audit Komitəsinə daxili audit planının əsas istiqamətlərini müəyyən edən tövsiyələr vermək və daxili audit bölməsinin Audit Komitəsinə tabe olmasını təmin etmək.;

3.1.10. Bank və digər maliyyə sektorlarında baş verən mühüm hadisələr və mövcud olan meyllər haqqında məlumatlı olmaq;

3.1.11. öz biznes fəaliyyətinin Banka mənfi təsir etməsinə yol verməmək;

3.1.12. Bankda daxili nəzarət, maliyyə fəaliyyətinin nəticələri və strateji planın icrası ilə bağlı problemləri bankın aidiyyəti vəzifəli şəxsləri ilə müzakirə etmək.

3.1.13. daxili auditorlara bankın əməkdaşları tərəfindən Bank və Bankla əlaqədar şəxslər haqqında bütün lazımi məlumatların və sənədlərin verilməsini təmin etmək;

3.1.14. ildə ən azı bir dəfə İdarə Heyəti üzvlərinin peşəkarlığını, bankın mənfəətlə işləməsində, maliyyə vəziyyətinin sabit olmasında və strateji məqsədlərə vaxtında nail olunmasında onların xidmətlərini, habelə tutduqları vəzifəyə uyğunluğunu qiymətləndirmək.

3.2. Şura üzvlərinin aşağıdakı hüquqları vardır:

3.2.1. Bankda idarəetmənin effektivliyini artırmaq və risklərə nəzarəti gücləndirmək məqsədilə Müşahidə Şurası tərəfindən yaradılan bankdaxili komitələrdə təmsil olunmaq;

3.2.2. Şuranın müvafiq qərarı ilə təsdiqlənməklə Bankın Risklərin idarə edilməsi komitəsi və Mükafatlandırma komitəsinə sədrlik etmək;

3.2.3. Bankın fəaliyyətini tənzimləyən bütün məsələlərlə bağlı İdarə Heyətinə məlumat sorğusu göndərmək;

3.2.4. Bankda risk məlumatlarının icmallaşdırılması və risk hesabatlığının effektivliyini təmin edən menecment informasiya sistemi tərəfindən hazırlanan hesabatlara çıxışla təmin olunmaq;

3.2.5. Bankın daxili komitələrindən hesabatlar almaq.

## 4. Müşahidə Şurası iclaslarının keçirilmə qaydası

4.1. Şuranın iclasları ən azı 3 (üç) ayda bir dəfə keçirilir.

4.2. Şuranın iclasları növbəti və növbədənkənar keçirilə bilər.

4.3. Şuranın növbəti iclasınların ehtimal olunan yeri və vaxtı cari iclasda müəyyən edilir. Əgər iclasın keçirilmə yeri və vaxtı dəyişərsə, Şuranın üzvlərinə iclasın başlanması gününə ən geci bir gün qalmış əlavə olaraq məlumat verilir. Məlumat şifahi qaydada da verilə bilər.

4.4. Müşahidə Şurasının iclaslarına Şuranın sədri rəhbərlik edir. Şuranın sədri olmadıqda onun iclas sədri kimi funksiyalarını Səhmdarların Ümumi Yığıncağı tərəfindən təyin edilən şəxs icra edir.

4.5. Şuranın iclası Şuranın sədrinin və ya Şuranın hər hansı bir üzvünün , habelə İdarə Heyətinin tələbi ilə çağrıla bilər.

4.6. Şura onun iclasında üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

4.7. Şurasının sədri öz təşəbbüsü və ya Şuranın hər hansı üzvünün xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edə bilər.

4.8. Şurasının qərarları açıq səsvermə yolu ilə, iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir.

4.9. Şura üzvü səsvermə hüququnu və vəzifələrini digər şəxslərə həvalə edə bilməz.

4.10. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına yol verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.11. Müşahidə Şurasının üzvləri Şuranın iclaslarında şəxsən və ya distant formada (video görüntü və ya telefon bağlantısı) – telekommunikasiya vasitələrinin köməyilə iştirak edə bilərlər.

4.12. Şuranın iclasında distant formada iştrak etmək niyyətində olan Müşahidə Şurasının üzvü məsələ ilə bağlı iclasın sədrini məlumatlandırmalıdır. İclas protokoluna Şuranın üzvünün telekommunikasiya vasitəsilə iştirak etməsi barədə qeyd daxil edilir.

4.13. Şuranın hər hansı bir üzvü ardıcıl olaraq 3 (üç) iclasda şəxsən iştirak etmədikdə Şuranın sədri, yaxud onu əvəz edən şəxs sonuncu iclas tarixindən 5 (beş) iş günündən gec olmayaraq məsələ ilə bağlı maliyyə bazarlarına nəzarət orqanına yazılı məlumat verir.

4.14. Şuranın iclasında yalnız iclasın gündəliyinə daxil edilmiş məsələlər müzakirə edilir.

4.15. Hər bir iclasın reqlamentini, müzakirə ediləcək məsələlərdən asılı olaraq, Şuranın sədri müəyyənləşdirir.

4.16. İclasın gündəliyinə Şura, Audit Komitəsi və İdarə Heyətinin üzvləri, eləcə də səsvermə hüququ olan səhmlərin azı 5 (beş) faizinə sahib səhmdarlar tərəfindən təklif edilən məsələlər daxil edilə bilər.

4.17. Gündəlikdə nəzərdə tutulmayan məsələlərin müzakirəsinə və müvafiq qərarların qəbul edilməsinə, həmin iclasda Müşahidə Şurasının bütün üzvləri iştirak etdiyi və sadə səs çoxluğu ilə razılığın olduğu hallar istisna olmaqla, yol verilmir.

4.18. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli və bu məsələnin müzakirəsində iştirak etməməlidir. Bu zaman həmin üzv məsələyə dair səsvermədə iştirak etmir və onun iştirakı yetərsay müəyyən edilərkən nəzərə alınmır. Bu barədə məlumat iclas protokoluna daxil edilir.

4.19. Şuranın iclaslarının nəticəsi Şuranın üzvləri və katibi tərəfindən imzalanmış iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir.

4.20. Şuranın iclaslarında Şuranın katibi tərəfindən xüsusi avadanlıq vasitəsilə audio yazıların qeydiyyatı aparıla bilər.

4.21. İclas protokolunda aşağıdakılar öz əksini tapır:

4.21.1. İclasın keçirilmə vaxtı və yeri;

4.21.2. İclasda iştirak edən şəxslərin siyahısı;

4.21.3. İclasın gündəliyinə daxil edilən məsələlər;

4.21.4. Səsə qoyulan hər bir məsələyə dair səsvermənin nəticələri;

4.21.5. Qəbul edilmiş qərarların dəqiq və səlis ifadə olunmuş mətni.

4.22. Şuranın sədri Bankın rəhbərliyində təmsil olunmayan şəxslər sırasından Şuranın katibini seçir.

4.23. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir.

4.24. Şuranın katibi:

4.24.1. Şuranın iclaslarını təşkil edir;

4.24.2. Şuranın iclaslarının keçirilməsi vaxtı barədə Şuranın üzvlərinə ən geci 3 (üç) iş günü qalmış yazılı məlumat verir;

4.24.3. Şura iclasının gündəliyinə daxil edilmiş məsələlərə dair zəruri materialları (arayış, hesabat və s.) iclasın keçirilməsi vaxtına ən geci 3 (üç) iş günü qalmış Şuranın üzvlərinə mümkün vasitələrlə (elektron poçt, faks, təcili məktub və s.) göndərir;

4.24.4. Şuranın iclaslarının protokolunu tərtib edir və imzalanması üçün Şuranın üzvlərinə təqdim edir;

4.24.5. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılması və imzalanması üçün Şuranın sədrinə təqdim edir;

4.24.6. Şuranın iclas protokollarından çıxarışları imzalayır;

4.24.7. Şuranın iclaslarının protokollarının və Şurada qəbul olunmuş qərarların surətlərini Şuranın üzvlərinə, habelə Şuranın qərarı ilə müəyyən olumuş aidiyyəti şəxslərə çatdırır;

4.24.8. Şuranın iclaslarının protokollarını və digər sənədlərini saxlayır.

## 5. Müşahidə Şurası üzvlərinin əməyinin ödənişi

5.1. Müşahidə Şurası üzvlərinə öz funksiyalarını həyata keçirmək məqsədilə Bankın bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında muzd şəklində ödənilə bilər. Bununla bağlı qərar Səhmdarların Ümumi Yığıncağında qəbul edilir.

5.2. Müşahidə Şurasının dövlət qulluqçusu olan, habelə hər hansı dövlət təsisatının rəhbərliyində təmsil olunan üzvlərinə muzd ödənilmir.

## 6. Yekun müddəalar

6.1. Müşahidə Şurasının qərarlarının icrası məcburidir.

6.2. Müşahidə Şurası Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarətin həyata keçirilməsi ilə bağlı qəbul etdiyi qərarlara görə məsuliyyət daşıyır.